# MƏNİM ƏHVALIMI İLLƏRDƏN SORUŞ

(Esse)



Qorxmaz Abdulla

Həyatım boyu çətin, əziyyətli sahələrdə işləmişəm. Fərli-başlı qazancım da olmayıb. Çörəyim daşın altından çıxıb həmişə. Yorulub əldən düşəndə, yüküm əyiləndə, bezdiyim məqamlarda təqaüdə çıxmış yaşlı kişilərə həsəd aparmışam. Öz-özümə: "Xoş ağıllarına qocaların, bəxtəvərlər qalxıblar ocaq başına, dönüblər vətən daşına", - demişəm. Tay səhərin gözü açılmamış mənim kimi yatağımdan tələm-tələsik qalxaraq dilim-dodağım pörşələnə-pörşələnə bir stəkan çay içib işə qaçmırlar. Saatlarla marşrut avtobusu gözləmirlər, sınıq-salxaq maşınlarda çox vaxt ayaq üstə büdrəyə-büdrəyə, kiməsə dolaşa-dolaşa yol getmək əzabına qatlaşırlar. Azaddılar, sərbəstdilər, əndişədən uzaqdılar. Gecədən xeyli keçənədək televizorda futbola, kinofilmlərə baxırlar. Vaxt-bivaxt bağda-bağçada, bazarda, dükanda gəzib-dolaşır, günlərini şən, maraqlı keçirirlər.

Həmyaşıdları ilə tez-tez görüşür, söhbətləşir, zarafatlaşır, məzəli lətifələr söyləyir, vaxtı öldürmək üçün domino, nərd, şaşki oynayırlar. Yorulanda da özlərini verirlər çayxanaya. Beşdə alacaqları yox, üçdə verəcəkləri. Hazırın naziridilər. Evlərində qulluğunda qolubağlı duranları var. Kəlfirləyəndə, tamam əldən-ayaqdan düşəndə isə rahatca uzanıb gözünün birini açıb, birini ehmalca yuma-yuma, zəif ürəyi gupbagup döyünə-döyünə cənab Əzrayılın gəlməsini gözləyirlər.

Günlər əridi, aylar üst-üstə qalaqlandı, illər keçdi, mən özüm də arzusunda olduğum məqama yetişdim. Ömrümün 65-ci baharının çiçəyi çırtlamamış qolumdan yapışıb iş otağıma buraxmadılar. "Kişi, tay qocalmısan, gücüm-qüvvən tükənib, işə yaramırsan. Səni həmişəlik çıxardırıq pensiyaya", - dedilər. - "Yuxarıdan göstəriş belədir".

Beləcə, yaş məsələsini bəhanə gətirərək mənim kimi minlərlə öz işinin kamil ustası olan təcrübəli, bacarıqlı, nümunəvi, ixtisasını dərindən bilən, uzun illər qüsursuz çalışan, vətəni, xalqı, dövləti qarşısında misilsiz xidmət göstərən müəllimləri, həkimləri, mədəniyyət xadimlərini, mühəndisləri... yararsız əski parçası təki bükүb-bürmələyib atdılar çölə. Sözün müstəqim mənasında ocağımızı söndürdülər.

Artıq on ilə yaxındır təqaüddəyəm. Əvvəllər dönə-dönə bəxtəvər sandığım, köks ötürdüyüm o "Aşıq Muradın dəstəsinə" qoşulmuşam. Təqaüdə çıxarılmağımdan heç iki ay keçməmişdi ki, bir vaxtlar sərbəstliyinə, asudə gəzib-dolaşmağına, həyat tərzinə həsəd apardığım qocalara münasibətdə yanıldığımı anlamışdım. Sən demə, zavallı qoca təqaüdçülər zülm çəkirmişlər. Onların bir saatı bir ildək uzun görünürmüş. Əmək qabiliyyətini itirmədən işindən kənarlaşdırılmaq, paxır bağlanmış qab kimi üzü üstə quylanmaq, çıxdaş olmaq, unudulmaq dözülməz dərd imiş. Yaş odun tək ocaqda korun-korun tüstülənmək qədər çətin və dözülməz... Vur-tut 65 yaşında uzun müddət ömrünü-günü həsr elədiyin, saçını-saqqalını ağartdığın, Məcnun təpərilə sevdiyin, ruhən, qəlbən bağlandığın, çeşidli-çeşidli uğurlara imza atdığın vəzifə postundan "artıq qocalmısan, heç nəyə yaramırsan" ittihamıyla qovulmağa nə ad vermək olar?! Hörmətsizlik, qədirbilməzlik, ayrıseçkilik?..

Əlqərəz. Vaxtımızı öldürməkdən ötrü adətən telefonda, hərdən də 36 il sərasər bir idarədə məsul vəzifədə çalışdığım həmkarım, eloğlum Akif müəllimlə görüşür, xatirələrə dönüş o mənalı günlərimizi həsədlə, nostalji hisslərlə dönə-dönə yada salırıq. Xəyalən haralara gedib çıxmırıq? Kövrəlirik, həyəcanlanırıq, təəssüflənirik, baiskarların qarasınca söyüb-söylənirik. Başımız bu söhbətlərə, unudulmaz xatirələrə necə qarışırsa, havanın nə vaxt qaralmağının fərqinə belə varmırıq. Hətta hərdən dəcəl uşaqlarsayağı höcətləşir, hirslənir, bir-birimizdən inciyirik də.

"Ay Akif müəllim, - deyirəm, - kim kimə qarğış eləsə, desin, səni görüm bekarçılıqdan üzüləsən, bezəsən. İşsizlik, bekar qalmaq elə yaman dərddi ki, adamın yaxasını verir cürbəcür xəstəliklərin, azarbezarın, huşsuzluğun, ruh düşkünlüyünün əlinə. Allah haqqı, bu saat ağrımayan yerim yoxdu. Nə qədər dava-dərman içəllər, iynə vurdurallar, ay başına dönüm. Tamam canımdan bezmişəm. Atalarımız demişkən, əlim ətəyə yetmir, dərdim tütəyə. Hamısı da bekarçılıqdandı. Elə darıxıram... Ay qardaş, intiresni işdi, elə bil vaxtı-vədəni tutub saxlayıllar. Sanki saatın əqrəblərindən ağır daş asılıb. Yerimək bilmir, üzünə durub". "Heç məni demirsən, ay Dönməz, mənim üçün lap çətindi. Bizi işimizdən tez ayırdılar. Haqsızlıq elədilər. Səni bilmirəm, mən hələ bir on il də işləyə bilərdim. Yenə sən yazı-pozu adamısan, yazırsan, başın qarışır. Bəs mən fağır neyniyim? Vaxtımı necə keçirim? Birdən lap dəli olmaq dərəcəsinə çatıram".

"Yox, əşi, tay mən həminki adam deyiləm. Gözlərim zəifləyib, ürəyimin odu-alovu öləziyib. Canımın sızıltısından gecələr gözlərimə yuxu gəlmir. Belə getsə, depressiyaya uğruyacam. Qocalıq zəhrimar əməlli-başlı məni xırxalayıb, basıb altına. Dizini diriyib boğazıma. Əslinə qalanda, mənim qocalığım elə cavanlığımdan başlayıb. Erkən atadan yetim qalmışam. Kirpiyimnən od götürmüşəm. Evim dağdan ağır dolanışıq yükünü zəif çiyinlərimdə daşımışam. Ayağım yer tutandan kənddə kolxoz işinə getmişəm. O vaxtlar çətin, ağır, iyrənc işləri tifil uşaqlara gördürürdülər. Məktəbdən gələn kimi kolxozun sahə briqadiri kəsdirirdi çəpərimizin yanını. Çörəyimi yeyib qurtarmamış məni qatırdı qabağına, aparırdı bağ belləməyə, çərgov sürməyə, ilbiz yığıb daşımağa, zəmi biçməyə, arabada dərz daşımağa, xırmanda vəl sürməyə... Bilmirdik dərslərimizi oxuyaq, yoxsa kolxoz işinə gedək. Bizim nəsil nələr çəkməyib! Nə yönlü uşaqlığımız olub, nə fərli gəncliyimiz. Qocalığımız da ki..."

"Elədi. Həqiqətən biz ağlımız kəsəndən, ayaqlarımız yer tutandan qaragünlü olmuşuq. Ancaq neynirsən, o qədər çətinliklərin, məhrumiyyətlərin qabağında öz "xodumuz"nan ali təhsil aldıq. Sən də, mən də qırx ildən çox müxtəlif vəzifələrdə vicdanla, ləyaqətlə çalışdıq".

"Rus demişkən, za to qədir-qiymətimizi bilən olmadı. Həmişə də qır savadsız, nadan, səviyyəsiz, rüşvətxor, yaramaz rəhbərlərin əlinin altında işlədiz. Elə götürək axırıncı iş yerimizi. İdarəmizdə bir qoşun adam maaş alırdı. Ən çətin, əziyyətli, məsuliyyət tələb eləyən işləri, tapşırıqları kimlər görürdü? İkimiz! Əvəzində araqarışdıran, onabuna qarayaxan, həftə səkkiz, mən doqquz, məktəb direktorlarından "Kurı"dan, Təhsil Nazirliyindən qonaqlarımız olacaq" adıyla pul yığan acgöz müdirimiz Allahın quruca "sağ olun"u deyirdi bizə?.. Yox"."Sağ olun" deməməyi qalsın bir yana, hələ bizi borclu çıxarırdı, irad tutdu. Guya, sənnən mən biləbilə onun hesabat məruzələrinə, çıxışlarının mətninə çətin sözlər, terminlər salırıq ki, oxuyanda dili dönməsin, çalışın, gülünc vəziyyətə düşsün".

Rum rəqəmi ilə yazılmış doqquzla on biri (IX, XI) dəyişik oxuyan kəmsavad müdirdən bundan artıq nə gözləyirdin ki..."

"Elə yenə axırda nə oldu, səninmənim kimilərinə oldu. Əvəzedilməz, həmişə yeri görünəcək mütəxəssisləri biryolluq atdılar maddi, mənəvi ehtiyacın burulğanına. Qocalığın yükünü zorla aşıdılar çiynimizə".

"Maraqlı, maraqlı olduğu qədər də acınacaqlı haldı. Necə olur axı, 80-85 yaşında əlləri əsən, gözləri tor görən, güclə yeriyən, başı-boynu üstündə durmayan, şalvarını isladan kişilər Milli Məclisdə oturub qanun "yazır", nazir, nazir müavini, komitə sədri, şirkət rəhbəri, icra başçısı... işləyə bilir, universitet auditoruyalarında saatlarla mühazirə oxuyur, 65 yaşında müəllim isə həftədə on saat dərs apara bilmir? Belə çıxır ki, bizdə qanunlar, qərarlar yalnız qara camaat üçündür!".

"Çıxdaş olmaq səni bilmirəm, bu on ildə rayonumuzun rəhbərlərindən, eləcə də uzun illər bir idarədə işlədiyimiz adamların əksəriyyəti hələ bircə dəfə zəng eləyib deməyib, ay filankəs, özünü necə hiss eləyirsən?

"Əşi, bu sıxıntılar, əndişələr az imiş kimi, bir yandan da "koronavirus" deyilən təzə bir xəstəlik peyda olub. Yəqin xəbərin var. Təkcə xüsusi karantin rejimində yaşamamışdıq, o da gəldi başımıza. İndi bütün dünya bu dəhşətli yolxucu xəstəliyin əsarətindədi. Hər yerdə xüsusi karantin rejimi yaradılıb ki, bu bəla insanlar arasında çox yayılmasın. Nəhəng şəhərlər, yaşayış məskənləri insan həniринə möhtacdı, məktəblər, əksər idarə-müəssisələr bağlanıb. Koronavirus, onun ən amansız ölüm saçan "COVİD-19" pandemiyası bütün ölkələri qarış-qarış dolaşmaqdadı".

"Bədbəxtlik ondadı ki, bu yolxucu virusun dava-dərmanı yoxdu. Qısa müddət ərzində dünya miqyasında həmin xəstəliyə yoluxanların sayı iki milyonu keçib. On minlərlə insan dünyasını dəyişib. "Çağırilmiş qonaq" Azərbaycandan da yan ötməyib. Ölənlərimiz də var. "Ən pisi odur ki, heç kəs də anoloqu olmayan bu faciənin nə vaxta qədər davam edəcəyini bilmir. Böyük Yaradan özü millətimizi bu dəhşətli bəladan qorusun".